# Musiqili Teatrda “Əliqulu evlənir”



Hər zaman olduğu kimi, bu dəfə də qocaman sənət ocağı teatrsevərləri yeni bir əsərlə sevindirəcək. Klassik dramaturqumuz Sabit Rəhmanın eyni adlı əsəri (bəstəkar, əməkdar incəsənət xadimi Oqtay Rəcəbov, libretto müəllifi xalq artisti, “Şöhrət” ordenli İlham Namiq Kamal) əsasında “Əliqulu evlənir” pyesi tamaşaya hazırlanır. Səhnə əsərinə sevilən sənətkarımız, görkəmli gülüş ustası İlham Namiq Kamal quruluş verir. Qeyd edim ki, bu tamaşa xalq artistinin Musiqili Teatrın səhnəsində rejissor kimi sayca üçüncü işidir. Belə ki, professor 2006-cı ildə “Şeytanın yubileyi” (dramaturq A.Babayev və bəstəkar O.Rəcəbov), 2010-cu ildə isə “Amerikalı kürəkən” (dramaturq M.Haqverdiyev və bəstəkar R.Mirişli) komediyalarına quruluş verib. Bu dəfə isə rejissor S.Rəhman irsinə müraciət edərək 22 ildən sonra onu yenidən Musiqili Teatrın tamaşaçıları ilə görüşdürməyi planlaşdırır. (1993-cü ildə dramaturqun “Hicran” komediyası Firudin Məhərrəmovun quruluşunda tamaşaya qoyulmuşdu.)

Rejissor sözügedən tamaşada dramaturqun fikrini daha aydın çatdırmaq üçün sadə, yığcam, bir o qədər də dolğun quruluş vasitələri tapa bilmişdir. Məşqlərdən aydın olur ki, İlham müəllim mətnlə musiqi arasındakı möhkəm əlaqədən istifadə edərək əsərin əsas ideyasını ön plana çəkir, xarakterləri təbii boyalarla bəzəyir. Janrı iki hissəli komediya kimi müəyyən edilən tamaşanın quruluşçu dirijoru əməkdar incəsənət xadimi Nazim Hacıəlibəyov, rəssamı gözəl səhnə tərtibatları ilə hər kəsin qəlbini oxşayan Nabat Səmədovadır. Tamaşada rəqslərə peşəkar xoreoqraflarımız Zakir və Yelena Ağayevlər quruluş verəcəklər. Hazırda tamaşanın məşqləri müntəzəm olaraq davam edir.

Əsərin bəstəkarı Rusiya Pedaqoji və Sosioloji Akademiyasının həqiqi üzvü, pedaqoji elmlər doktoru, professor, Prezident təqaüdçüsü, əməkdar incəsənət xadimi Oqtay Rəcəbovdur. Teatr kollektivi Oqtay müəllimin ürəkləri riqqətə gətirən musiqisi ilə ilk dəfə 2002-ci ildə “Əlin cibində olsun” komediyasının səhnə həlli zamanı tanış olmuşdur. Tamaşa böyük əks-səda yaratmışdır.

2006-cı ildə “Şeytanın yubileyi” əsərini teatra təqdim edən bəstəkar bu dəfə “Əliqulu evlənir” operettası ilə musiqisevərlərin görüşünə gələcək. Düşünürük ki, Oqtay müəllimin gözəl ariya, duet və xor partiyaları uzun müddət yaddaşları bəzəyəcək. Tamaşanın birinci və ikinci pərdəsində Kamal və Qumralın, Gövhər və Xəlilin dueti, Əliqulu Baloğlanoviçin oxuduğu mahnılar rəvanlığı ilə seçilir.

Həyatın komik tərəflərini görmək və göstərmək, eyni zamanda, gülmək və bu gülüşdə ciddiyyəti ifadə etmək nöqteyi-nəzərindən Sabit Rəhmanın komediya yazarlarımız içərisində xüsusi yeri var. Bu xüsusiyyətlər dramaturqun istər hekayə, povest, romanlarında, istər komediyalarında, istərsə də ssenari və librettolarında aydın nəzərə çarpır. Onun əsərlərində həyatın lirik, epik və dramatik təsvirinə bu və ya digər dərəcədə rast gəlsək də, satira və yumor Sabit Rəhman istedadının əsas keyfiyyətidir. Müəllifin yaradıcılığında geniş yer tutan bu cəhət ilk peşəkar musiqimizin yaradıcısı, ictimai xadim Üzeyir Hacıbəylinin eyni adlı musiqili komediyaları əsasında çəkilmiş “Arşın mal alan” və “O olmasın, bu olsun” filmlərinin, “Əhməd haradadır?” (“Axtaran tapar”) kino-komediyasının ssenarilərində və “Ulduz”, “Hicran” musiqili komediyalarının librettosunda da qabarıq şəkildə görünür.

“Əliqulu evlənir” komediyası müasirlik duyğusu ilə qələmə alınmış, dərin ictimai məsələlərə toxunan, cəmiyyətin müəyyən etik problemlərini əks etdirən əsərdir. 1961-ci ildə qələmə alınmasına baxmayaraq, komediyada diqqəti ən çox cəlb edən cəhət mövzunun müasirlik nöqteyi-nəzərindən dərindən işlənməsidir. Əsərdə müəllifi, hər şeydən əvvəl, cəmiyyətə ziyan vuran ictimai məsələlər və insanların onlara qarşı mübarizəsi maraqlandırır. Komediyada təqdim olunan və uğurla həllini tapan məsələlərdən biri də insan və vəzifə problemidir. İnzibati vəzifədə olarkən insan öz mənəvi vəzifəsini yerinə yetirmək üçün daha böyük imkanlar tapır. Lakin insan inzibati vəzifəsindən bu məqsəd üçün deyil, cəmiyyətin mənəvi inkişafına ziyan vurmaq üçün istifadə etdikdə həyatın qanunauyğunluqlarından kənara çıxır və gülünc vəziyyətə düşür.

Komediyanın əsas qəhrəmanı olan Əliqulu (xalq artisti İlham Namiq Kamal və aktyor Nadir Xasıyev) da məhz belə bir vəziyyətin içindədir. Vəzifə sahibi olan Əliqulu dəhşətli xəstəliyə tutulur. Bu xəstəlik vəzifə ehtirasıdır. Əliqulunun iddiaları nədən ibarətdir? O, “kabinetsiz”, “kreslosuz”, “telefonsuz”, “katibəsiz” yaşaya bilmir. Vəzifə onun həyatıdır; nə olur-olsun, onun vəzifəsini əlindən almasınlar. Rəhbərlik etdiyi idarənin işi onu maraqlandırmır. Onu yalnız vəzifə və “kabinet” maraqlandırır. Əliqulu vəzifə ehtirasına o qədər qapılmışdır ki, iyirmi beş illik ailəsini belə dağıtmağa və yenidən evlənməyə hazırdır. Əslində Əliqulu evlənmək istəmir. O yalnız vəzifədə qalmaq üçün böyük bir vəzifəli ilə qohum olmaq istəyir. Onun bu hərəkəti arvadı Gövhərin (əməkdar artist Nahidə Orucova və aktrisa Gülçöhrə Abdullayeva) dediyi kimi, “qocalıqda yorğalıq” deyildir, vəzifə ehtirasının insanın ailə qarşısındakı mənəvi vəzifəsinə hücumudur. Qızını ərə verməyə hazırlaşan bir atanın qızı yaşında olan Nazlı (aktrisa Gülnarə Əzizova) ilə evlənməsi vəzifə düşkünü olan insanın satirik xarakterini açmaq üçün müəllifin əlində bədii vasitəyə çevirilmişdir.

Komediyanın maraqlı obrazlarından olan Səfər (aktyor Ağaxan Şərifov) də Əliqulunun həmkarıdır. O da ailə və vəzifəyə münasibətdə heç də Əliquludan geridə qalmır. Onun elə bir vəzifəsi olmasa da, Əliqulu kimilərin nadanlığından, vəzifə düşkünlüyündən istifadə edir, öz şəxsi mənafeyi üçün çalışır. Maraqlı cəhətləri ilə diqqətçəkən Xəlil obrazı (aktyor Əliməmməd Novruzov) əsərdə Əliqulu obrazına qarşı qoyulmuşdur.

“Əliqulu evlənir” operettasında istifadə olunan şeirlərin müəllifi əməkdar incəsənət xadimi Baba Vəziroğludur. Müasir Bakımızın tərənnümü, böyük sevgi təntənəsi şairin şeirlərində öz əksini tapır. Tamaşanın hazırlanmasında geyim üzrə rəssam Yelena Almazovanın, xormeystr əməkdar artist Vaqif Məstanovun, rejissor assisenti Elməddin Dadaşovun da səmərəli işlərini qeyd etmək lazımdır.

Onu da qeyd edim ki, quruluşçu rejissor gözəl aktyor ansamblı toplaya bilmişdir. Səhnə əsərində rolları teatrın aktyorları - xalq artisti İlham Namiq Kamal, əməkdar artistlər Nahidə Orucova, Əkbər Əlizadə, sevilən aktyorlar Nadir Xasıyev, Əliməmməd Novruzov, Rəsmiyyə Nurməmmədova, Gültac Əlili, Səmədzadə Xasıyev, Ülviyyə Əliyeva, Mehriban Zalıyeva, Nicat Həbibov, Gülnarə Abdullayeva və başqaları ifa edəcəklər.

**Elməddin DADAŞOV,**
**Rejissor.**